**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ENERGETİKA NAZİRLİYİ**

# Ə M R

№3-15/3-2-674/2024

Bakı şəhəri "28" oktyabr 2024-cü il

**"Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları"nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 4.5.8-ci yarımbəndinə əsasən Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən təqdim edilmiş təklifləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları" (bundan sonra – Qayda) təsdiq edilsin (əlavə olunur).
2. Bu Qayda 01.01.2025-ci il tarixdən qüvvəyə minsin, Qayda qüvvədə olduğu gündən etibarən Energetika Nazirliyinin (bundan sonra – Nazirlik) 03.10.2022-ci il tarixli F-99 nömrəli əmri ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları" ləğv edilsin.
3. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
4. Bu əmrin icrasına nəzarət Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədrinə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası
Energetika Nazirliyinin
"28" oktyabr 2024-cü il tarixli
"3-15/3-2-674/2024" nömrəli
Əmri ilə təsdiq edilmişdir.

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Energetika Nazirliyinin Kollegiyasının 2024-cü il 29 may tarixli 3-15/3-1-1/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydaları" (bundan sonra – TTQ) və 2024-cü il 12 iyun tarixli 3-15/3-1-2/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının texniki istismar Qaydaları"na (bundan sonra – TİQ) uyğun olaraq, Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – Agentlik) Nizamnaməsi rəhbər tutulmaqla hazırlanmış və elektrotexniki heyətin, eləcə də elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanması ilə bağlı Agentliyin filiallarında (bundan sonra – Filial) biliyin yoxlanılması komissiyasının təşkil olunması, peşə biliklərinin yoxlanılması üçün müraciətin qəbulu və qeydiyyata alınması, peşə biliklərinin yoxlanılması, nəticələrinin rəsmiləşdirilməsi və hesabatlılığa dair Agentlikdaxili məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.2.1. **ərizə** – biliyin yoxlanılması üçün müəssisə tərəfindən təqdim edilən yazılı müraciət və ona əlavə edilən sənədlərin məcmusu;

1.2.2. **komissiya** – TİQ və bu Qaydalara uyğun olaraq, elektrotexniki heyətin və elektrik təsərrüfatına cavabdeh şəxslərin biliyinin yoxlanılması məqsədilə Filiallarda yaradılan işçi qrup;

1.2.3. **qeydiyyatçı** – Filial rəisi tərəfindən təyin edilən və ərizələrin ilkin yoxlanmasını və qeydiyyatını həyata keçirən Filial əməkdaşı;

1.2.4. **müəssisə** – dövlət qurumları və təşkilatlar, həmçinin hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

1.2.5. **texniki xidmət** – elektrik qurğusunun işlək (saz) vəziyyətdə saxlanılmasını təmin edən və təyinatı üzrə istifadə olunduqda, saxlanıldıqda və daşındıqda onların imtina ehtimallarını azaldan təşkilati tədbir (texniki əməliyyatlar kompleksi).

1.3. Bu Qaydalarda istifadə edilmiş digər anlayışlar Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin, onların müavinlərinin, həmçinin elektrik qurğularına nəzarət vəzifəsi həvalə edilmiş əməyin mühafizəsi üzrə mütəxəssislərin peşə biliklərinin yoxlanılmasında məqsəd elektrik qurğularının etibarlı, təhlükəsiz və səmərəli istismarını təmin etmək, onları işlək və yararlı vəziyyətdə saxlamaqdır.

1.5. Elektrik qurğularına texniki xidmət və onların istismarını həyata keçirən, bu qurğularda quraşdırma, sazlama, təmir, sınaq və ölçmə işlərini görən elektrotexniki heyət və elektrik təsərrüfatlarına cavabdeh şəxslər TTQ və TİQ ilə müəyyən edilmiş qaydada Agentlikdə peşə biliklərinin yoxlanılmasından keçməli və elektrik təhlükəsizliyi üzrə müvafiq qrupa malik olmalıdır.

1.6. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Agentlikdə tətbiq olunan Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi Sistemi (bundan sonra – ESDS) vasitəsilə həyata keçirilir.

## 2. Komissiyanın təşkil olunması və fəaliyyət dairəsi

2.1. Agentliyin İdarə Heyətinin (bundan sonra – AİH) sədrinin əmri ilə Filiallarda tərkibi 5 (beş) nəfərdən az olmayan Komissiya yaradılır. Komissiyanın sədri, sədr müavini və üzvləri bu Qaydaların 1.5-ci bəndi ilə müəyyən edilmiş qaydada Agentlikdə yaradılmış Mərkəzi Komissiyada biliyin yoxlanılmasından keçməli və elektrik təhlükəsizliyi üzrə müvafiq qrupa malik olmalıdır.

2.2. Komissiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. müəssisənin elektrik təsərrüfatında çalışan elektrotexniki və elektrotexnoloji heyətin peşə biliklərinin yoxlanılması məqsədilə müəssisələrdə yaradılmış komissiyanın üzvlərinin biliklərinin yoxlanılması;

2.2.2. müəssisənin elektrik təsərrüfatına cavabdeh olan şəxslərin, onların müavinlərinin, həmçinin vəzifəsinə elektrik qurğularına nəzarət daxil olan əməyin mühafizəsi üzrə mütəxəssislərin peşə biliklərinin yoxlanılması;

2.2.3. sayı biliyin yoxlanılması üzrə komissiya yaratmağa imkan verməyən müəssisələrin elektrotexniki və elektrotexnoloji heyətinin peşə biliyinin yoxlanılması.

2.3. Komissiyanın üzvləri bütün səviyyələrdə biliyin yoxlanılması üzrə müəssisələrdə yaradılan komissiyaların işlərində iştirak edə bilərlər.

2.4. Biliyin yoxlanılmasında komissiyanın ən azı 3 (üç) üzvü iştirak etdikdə Komissiya səlahiyyətlidir. Bu şərtlə ki, üzvlərdən biri komisiyyanın sədri və ya sədr müavini olsun.

## 3. Peşə biliklərinin yoxlanılması üçün müraciətin qəbulu və qeydiyyata alınması

3.1. Qeydiyyatçı peşə biliklərinin yoxlanılması barədə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, müəssisədən daxil olan ərizə və ona əlavə edilmiş aşağıda qeyd edilən sənədləri qeydiyyata alır və həmin gün Filial rəisinə təqdim edir:

3.1.1. biliyin yoxlanılması üzrə müəssisədə yaradılmış komissiyanın üzvlərinin biliyi yoxlanıldığı halda həmin komissiyanın təşkil olunması barədə əmrin surəti;

3.1.2. biliyi yoxlanılacaq şəxsin (şəxslərin) vəzifəsi, iş stajı, müvafiq vəzifə (peşə) öhdəlikləri üzrə istehsalat fəaliyyətinin xarakteri və olduğu halda elektrik təhlükəsizliyi üzrə qrupu barədə məlumatlar.

3.2. Filial rəisi ərizəni qəbul etdikdən 1 (bir) iş günü müddətində biliyi yoxlanılan şəxsə ən yaxın olan Komissiyanın sədri və ya sədr müavininə yönəldir.

## 4. Peşə biliklərinin yoxlanılması və nəticələrinin rəsmiləşdirilməsi

4.1. Komissiyanın sədri və ya sədr müavini ərizə ilə tanış olduqdan sonra 2 (iki) iş günü müddətində komissiyanın üzvləri və Filial rəisi ilə razılaşdırmaqla peşə biliyinin yoxlanılmasının vaxtını və yerini təyin edir.

4.2. Komissiya tərəfindən bu Qaydaların 4.1-ci bəndinə uyğun olaraq, təyin edilən tarixdə və yerdə ərizədə qeyd edilən şəxsin (şəxslərin) peşə biliyinin yoxlanılması həyata keçirilir.

4.3. Biliyin yoxlanılmasına cəlb edilmiş şəxslərin peşə biliyinin yoxlanılması fərdi olaraq aparılır.

4.4. Elektrotexniki heyət və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin vəzifə və ya ixtisasa tətbiq olunan tələblər çərçivəsində, texniki normativ aktlar, o cümlədən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları" (bundan sonra – EEİQ), Energetika Nazirliyinin Kollegiyasının 2024-cü il 27 iyun tarixli 3-15/3-1-4/2024 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydaları" (bundan sonra – QQ), TİQ, TTQ, qurğu üzrə, elektrik qurğularının texniki istismarı üzrə, avadanlıq və şəbəkələr, həmçinin işlərin təhlükəsiz yerinə yetirilmə üsulları və elektrik mühafizə vasitələrinin tətbiqi, qayda və istehsalat təlimatları üzrə peşə bilikləri yoxlanılır.

4.5. Peşə biliyinin səviyyəsi onun elektrik təhlükəsizliyi üzrə qrupuna, EEİQ, QQ, TİQ, TTQ və istehsalat təlimatlarının tələblərinə uyğun olmalıdır.

4.6. Biliyin yoxlanılmasının nəticələrinə görə şəxsin QQ, TİQ, EEİQ və istehsalat təlimatları üzrə bilik səviyyəsi qiymətləndirilir (2-dən 5-dək), TTQ üzrə isə bilik səviyyəsinə uyğun olaraq elektrik təhlükəsizliyi qrupu (II-dən V-dək) təyin olunur.

4.7. Biliyin yoxlanılmasının nəticələri barədə bu Qaydalara 1 nömrəli Əlavəyə uyğun olaraq, tərtib edilmiş "Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair Qeydiyyat Jurnalı"nda (bundan sonra – Jurnal) qeydlər aparılır, komissiya üzvləri və biliyi yoxlanılan şəxs (şəxslər) tərəfindən imzalanır. Bir neçə şəxsin peşə biliklərinin yoxlanılması 1 (bir) gündə keçirildikdə və komissiyanın tərkibi dəyişmədikdə komissiyanın üzvləri biliklərin yoxlanılması başa çatdıqdan sonra Jurnalı 1 (bir) dəfə imzalayır.

4.8. Jurnal elektron qaydada tərtib olunanadək kağız daşıyıcıda komissiyada saxlanılır. Jurnalın vərəqləri aşağı sağ küncdən nömrələnir, qaytanlanır, son səhifədə vərəqlərin sayı göstərilməklə komissiyanın fəaliyyət göstərdiyi Filial rəisi tərəfindən imzalanır, həmin səhifəyə Filialın möhürü vurulur. Qeydiyyat məlumatlarına düzəlişlərin edilməsi və ya sözlərin qısaldılması qadağandır. Yalnız ilkin qeydiyyat məlumatlarında texniki qüsurlara yol verildikdə qeydlərin yazılmasına yol verilir.

4.9. Jurnal ilk texniki imkanlar yarandığı gündən elektron qaydada tərtib olunduqda Agentliyin rəsmi saytında açıqlanır, qeydiyyat məlumatlarına dəyişiklik edilməsi mümkün olmayan, lakin qeydlər yazıla bilən formatda saxlanılır. Jurnala qeydiyyat məlumatları sütunların mövzusuna uyğun olaraq, oxunaqlı şəkildə daxil edilməlidir.

4.10. Komissiya tərəfindən biliyin yoxlanılmasının nəticələri barədə məlumat həmin gün Filial rəisinə təqdim edilir və bu Qaydalara 2 nömrəli Əlavəyə uyğun olaraq

hazırlanmış Jurnaldan çıxarış müşayiət məktubu ilə müəssisəyə göndərilir.

4.11. Biliklərinin yoxlanılması üçün təkrar daxil olmuş ərizəyə bu Qaydalara uyğun olaraq yenidən baxılır.

## 5. Hesabatlılıq

5.1. Biliyin yoxlanılması keçirildikdən sonra sənədlərin surəti Filialda saxlanılır.

5.2. Filiallar tərəfindən ay ərzində biliyin yoxlanılması barədə hər növbəti ayın 2-dək Agentliyin Enerji tənzimləmə və monitorinq departamentinə bu Qaydalara 3 nömrəli Əlavəyə uyğun olaraq aylıq hesabat təqdim edilir.

“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları”na
1 nömrəli Əlavə

## Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair QEYDİYYAT JURNALI

| Qeydiyyat № | Adı, soyadı, atasının adı | Hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, vəzifəsi və hazırkı vəzifədə işlədiyi müddət | Əvvəlki yoxlama tarixi | Yoxlamanın səbəbi | Cari yoxlama tarixi | Yoxlamanın nəticəsi barədə Komissiyanın rəyi və qiyməti | Təhlükəsizlik texnikası üzrə qrupu | Növbəti yoxlamanın tarixi | Yoxlanılan şəxsin imzası |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

Komissiyanın sədri: ____________________
Komissiyanın sədr müavini: ____________________
Komissiyanın üzvləri: ____________________

**“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları”na 2 nömrəli Əlavə**

**Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair Qeydiyyat Jurnalından ÇIXARIŞ №**

**Çıxarışı verən: Enerji Məsələlərini Tənzimləmə Agentliyinin______________filialı.**
**Biliyin yoxlanılmasını aparan komissiyanın yerləşdiyi filial və ünvanı: Enerji Məsələlərini Tənzimləmə Agentliyinin________filialı.**

**Biliyi yoxlanılan şəxs barədə məlumatlar (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, biliyi yoxlanılan şəxsin soyadı, adı, atasının adı və vəzifəsi):**

**Hazırkı vəzifədə işlədiyi müddət:**

**Əvvəlki yoxlamanın tarixi:**

**Yoxlamanın səbəbi:**

**İndiki yoxlamanın tarixi:**

**Yoxlamanın nəticəsi barədə Komissiyanın rəyi və qiyməti:**

**Təhlükəsizlik texnikası üzrə qrupu:**

**Növbəti yoxlamanın tarixi:**
Rəis:
M.Y. “____” _________ 20__ il

"Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları"na
3 nömrəli Əlavə

_____ ilin _________ ayı ərzində ______ filialı üzrə
elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması barədə
**HESABAT**

| S/s | Adı, soyadı, atasının adı | Hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı | Yoxlamanın səbəbi | Yoxlamanın tarixi | Komissiyanın rəyi | Komissiyanın yerləşdiyi filial |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| | | | | | | |